***ALİM ÖMRÜ***

UOT 373.3/5.

**UNUDULMAYACAQ İNSAN**



*Bu gözəl yaz günlərinin birində acı bir xəbər dost-tanışı, tələbələri, yaxınları, əzizləri sarsıtdı.* Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, *AMEA-nın müxbir üzvü, professor, əməkdar elm xadimi, Oruc Qafar oğlu Həsənli uzun sürən xəstəlikdən sonra 67 yaşında vəfat etmişdir.*

*Hamımızı yandırdı-yaxdı Oruc müəllim. Bu vaxtsız gediş nə idi?*

*60 illik yubileyində Oruc müəllim haqda bir yazı yazmışdım. Həmin yazını gözdən keçirib, bəzi əlavələr etdim. Məqaləni indiki zamanda qələmə alınmışdı. Ürək yanğısı, göz yaşları içərisində indiki zamanı keçmiş zamanla əvəz etməli oldum.*

Oruc Qafar oğlu Həsənli 1950-ci ildə Şərur rayonunun Ələkli kəndində anadan olmuş, orta təhsilini kənd məktəbində almış, 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Ali təhsilini başa vurduqdan sonra doğma kəndində müəllim kimi fəaliyyətə başlamış, 1975-ci ilədək burada çalışmışdı.

Oruc müəllim 1973-1974-cü illərdə hərbi xidmətdə olmuşdu.

O, 1975-ci ildən taleyini Naxçıvan Dövlət Universiteti ilə bağlamış, pedaqoji fəaliyyətini burada davam etdirmişdi. Oruc Həsənli universitetin Pedaqogika və psixologiya kafedrasında əvvəlcə assistent, daha sonralar baş müəllim, dosent və professor vəzifələrində çalışmış, respublika ümumtəhsil məktəbləri üçün yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasına öz töhfəsini vermişdi.

Oruc Həsənli Naxçıvan Dövlət Universitetində işləyə-işləyə, eyni zamanda 14 il Naxçıvan Özəl Universitetinin tədris və elmi işlər üzrə prorektoru vəzifəsinə çalışmışdı.

Mən Oruc müəllimlə tanış olanda o hələ o zamankı Naxçıvan Pedaqoji İnstitutunda (hazırda Naxçıvan Dövlət Universiteti) sıravi müəllim idi. Namizədlik dissertasiyası üzərində işləyirdi. Elmi rəhbəri Fərahim Sadıqov da (hazırda pedaqogika üzrə elmlər doktoru, professor) hələ elmlər namizədi idi. O da doktorluq dissertasiyası yazırdı və artıq əsərini tamamlamaq üzrə idi. Fərahim müəllim bizim institutda işləyirdi. Ona görə də Oruc müəllim tez-tez institutumuza gəlir, elmi rəhbərindən məsləhətlər alır, M.F. Axundov adına Respublika Kitabxanasında çalışırdı.

Oruc Həsənli ”Diyarşünaslıq materiallarında istifadə mənəvi tərbiyənin vasitəsidir” mövzusunda namizədlik dissertasiyasını 1992-ci ildə müdafiə etdi və pedaqoji elmlər namizədi elmi dərəcəsi aldı.

Bizim tanışlığımızın tarixi iyirmi altı ili əhatə edir. Bu illər ərzində aramızda təmənnasız qarşılıqlı kömək və anlama, saf və səmimi münasibətlər bərqərar olub. Bir-birimizlə görüşəndə sanki dünyanın bütün sevincini bizə bəxş edirdilər. Tez-tez telefonla da əlaqə saxlayırdıq. Bir-birimizin əhvalını soruşmaq, bayramlarımızı, xoş günlərimizi təbrik etmək üçün. Oruc müəllim hər dəfə mənə zəng edəndə birinci sözü bu olurdu: "Qardaş!" Özü də bu "qardaş" kəlməsini naxçıvanlılara məxsus şirin ləhcə ilə deyirdi. Mən də ondan öyrənmişəm. Oruc müəllimə zəng edəndə, yaxud onun səsini eşidəndə qeyri-ixtiyari "Qardaş!" deyirdim. Bir dəfə nədən ötrüsə Oruc müəllimə zəng etmişdim. Dedim onu qabaqlayım. Birinci "Qardaş" sözünü mən deyim. Elə də oldu. Fəqət cavab gəlmədi. Təəccübləndim. Soruşmaq istəyirdim ki, nə olub, səs eşidildi: "Oruc müəllim deyil, oğludur". Demə, Oruc müəllimin mobil telefonu oğlu Eldənizdə imiş.

Sonralar arada mən də, Oruc müəllim də həmin əhvalatı yada salıb, ürəkdən gülürdük.

Biz rəsmi, yəni işlə bağlı məsələləri həll etmək üçün də tez-tez zəngləşirdik. Oruc müəllimin tez-tez Bakıya yolu düşdüyü kimi mən də elə il olub iki dəfə, ən azı ildə bir dəfə Naxçıvana getməli olmuşam. Namizədlik və doktorluq dissertasiyalarının müdafiələrində rəsmi opponent olduğum üçün, elmi konfranslarla bağlı. Oruc müəllim də tez-tez Bakıda bizim institutda və Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində rəsmi opponent kimi çıxış edirdi.

Oruc müəllim "Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi" adlı doktorluq dissertasiyasını 2005-ci ildə müvəffəqiyyətlə müdafiə etmişdi. Mən o zaman müdafiə prosesində onun birinci rəsmi opponenti oldum. Digər rəsmi opponentlər pedaqoji elmlər doktoru, professor Şahin Tağıyev və pedaqoji elmlər doktoru Fərrux Rüstəmov təyin edilmişdilər.

Doktorluq dissertasiyası ilə bağlı onun "Şagird şəxsiyyətinin formalaşdırılması prosesində diyarşünaslıq materiallarından istifadənin sistemi" mövzusunda monoqrafiyası (Bakı: Elm, 2002), "Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadə" (Bakı: Elm, 2002) adli kitabı və Türkiyə Respublikasında daha bir kitabı nəşr edilmişdi. O, həm də "Şagirdlərin ekoloji tərbiyəsi (Bakı: Mütərcim, 2007) kitabının müəllifi idi.

Onun "Şagird şəxsiyyətinin formalaşdırılması prosesində diyarşünaslıq materiallarından istifadənin sistemi" adlı monoqrafiyasının elmi redaktoru prof. F.B. Sadıqov, rəyçilərindən biri isə mən olmuşdum.

Bizim şəxsi və rəsmi əlaqələrimiz həmişə olurdu.

Mən Oruc müəllimin rəsmi opponenti olduğum kimi, Oruc müəllim də mənim yetirməmin, elmi rəhbəri olduğum İntiqam Cəbrayılovun doktorluq dissertasiyasının müdafiəsi zamanı ona rəsmi opponentlik etmişdi.

Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə bizim institut – Azərbaycan Respublikasının Təhsil İnstitutu son illərdə bir çox beynəlxalq və respublika elmi konfransları keçirmişik. "Pedaqoji kadr hazırlığı: problemlər, vəzifələr", "Azərbaycan təhsili yeni inkişaf mərhələsində", "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" və s. nümunə göstərilə bilər.

Hər üç konfransın yüksək səviyyədə keçirilməsində akademiklər *İsa Həbibbəyli, Abdulla Mehrabov* və *Oruc Həsənlinin* böyük zəhmətləri olub.

Oruc Həsənli təkcə tərbiyə nəzəriyyəsinə aid tədqiqatlar aparmır, eyni zamanda məktəb və pedaqoji-psixoloji fikrin tədqiqi ilə də məşğul olurdu. O, Heydər Əliyevin təlim və tərbiyəyə dair fikirlərini diqqət mərkəzinə gətirmiş, Nizami Gəncəvinin, Abbas Səhhətin, Məhəmmədhüseyn Şəhriyarın pedaqoji fikirlərini seçib-ayırmışdı.

Oruc müəllim Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsində çalışırdı. O, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 25 noyabr 2010-cu il tarixli Sərəncamı ilə rektor təyin olunmuşdu.

Oruc Həsənli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü idi.

Oruc Həsənli "Tərəqqi" medalı ilə təltif olunmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Azərbay-

can Respublikasının Təhsil Problemləri İnstitutunun elmi müxbiri idi.

O.Q. Həsənli bir çox monoqrafiya, kitab və kitabçanın, tədris proqramının, çoxsaylı elmi məqalənin və məruzə tezisinin müəllifi idi. O, 20-dən artıq kitabın elmi redaktoru və 40-dan artıq kitabın rəyçisi idi. Onun əsərləri Türkiyə, Rusiya, Amerika, İran və digər ölkələrin nüfuzlu elmi jurnallarında çap olunmuşdu. Bəzi kitablarını diqqət mərkəzinə gətirək: "Ders dışı etkinlikler zamanı diyarşünaslıq materiallerini kullanmakla öğrencilerin kimlik oluşumu" (Ankara, 2003), "Sosial psixopedaqogikada istedadlı uşaqlar problemi" (2011), "Məktəb psixoloqunun stolüstü lüğəti" (2013), "İnsan psixologisinin sırlı dünyası: kıskanclık (Türkiyə, 2014) (D. İbrahimoğlu ilə birgə), "Didaktika: Dərslik (2015, F. Sadiqovla birgə), "Tərbiyəşünaslıq: Dərslik (2016, F. Sadiqovla), "Depressiya" (2016), "Məktəb psixoloqunun stolüstü kitabı (2016), "Təhsilə müasir psixoloji yanaşmalar" (2017) və s.

O, bir sıra elmi jurnal və qəzetlərin, o cümlədən "Milli pedaqogika məktəbi" jurnalının redaksiya heyətinin üzvü, Naxçıvan Müəllimlər İnstitutunun "Elmi xəbərlər"inin baş redaktoru, "Psixoloq" qəzeti redaksiya heyətinin üzvü idi.

Oruc müəllim Naxçıvan Muxtar Respublikası Televiziyasında "Bu günün tələbi" adlı veriliş aparırdı. Həmin verilişlərin maraqlı, məzmunlu olması üçün qüvvə və bacarığını əsirgəmirdi.

Oruc müəllim pedaqoji sahədə çalışmaqla, müəllim kadrları hazırlamaqla yanaşı həm də ictimai xadim idi. Şərur rayonundan 3-cü və 4-cü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdi. Bir deputat kimi səmərəli fəaliyyət göstərirdi.

Oruc müəllim elmi-pedaqoji kadrların hazırlanması sahəsində səmərəli fəaliyyət göstərirdi. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən dissertasiya şurasının üzvü idi. Həm rəsmi opponent, həm də elmi rəhbər kimi elmi kadrların yetişməsində fəal iştirak edirdi. Dissertantlara elmi rəhbərlik edirdi. Bir neçə dissertantının müdafiəsi zamanı mən rəsmi opponent kimi çıxış etmişdim.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi, Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü Oruc Qafar oğlu Həsənli istedadlı alim, mahir təhsil qurucusu, yüksək idarəetmə və rəhbərlik qabiliyyətinə və bacarığına malik şəxs və şəxsiyyət olmaqla yanaşı, gözəl ailə başçısı, ata, həyat yoldaşı və baba idi. Dostları, iş yoldaşları da onu çox sevirdilər.

Oruc müəllim elmlər doktoru, professor, akademik, institut rektoru idi. Fəqət, bəzi vəzifə sahiblərindən fərqli olaraq, o, sadə, təvazökar, xeyirxah, dostcanlı və səmimi idi. Rektor olsa da, dostları və tanışları ilə vaxtilə hansı münasibətdə idisə, həmin münasibətlərini saxlayırdı. İnstitutun əvvəlki rektoru, gözəl insan, mərhum Sadiq Vəliyevi hörmət və məhəbbətlə yad edir, xidmətlərini qeyd etməyi özünə borc bilirdi.

Oruc müəllim təkəbbür və lovğalıq nədir – bilmirdi. Zirvələrə qalxdıqca bir o qədər də davranış və rəftarına, oturuşuna-duruşuna fikir verir, çalışırdı ki, kimsənin xətrinə dəyməsin. Lakin öz vəzifəsinə səhlənkar yanaşanları da xoşlamır, çalışırdı ki, onlarda cavabdehlik yaratsın. Zarafatcıl idi, lakin zarafatın yerini və məqamını bilirdi. Tələbkardı, işində məsuliyyətli və ciddiydi.

Oruc Həsənlinin rektor işlədiyi ali təhsil müəssisəsində müəllim-tələbə münasibətləri düzgün qurulmuşdu, təmizlik, şəffaflıq hökm sürürdü. Bu müəssisədə kişi və qadın müəllimlərin də, tələbə oğlan və qızların da xüsusi geyim forması vardı (Naxçıvan Dövlət Universitetində də bu qayda gözlənilir). Müəllimlər və tələbələr üçün vahid geyim formasının tətbiqi həm intizam yaradır, həm modabazlığın qarşısını alır, həm də imkanlıların imkansızlar qarşısında gündə bir paltarda işə, dərsə gəlməsi ilə öyünməsinə imkan vermir.

Oruc Qafar oğlu Həsənli cəmi 68 il yaşadı. İstərdik ki, 100-150 il ömür sürsün. Çünki Oruc xislətli, Oruc xasiyyətli, Oruc səviyyəli insanlar cəmiyyəti, bu dünyanı gözəlləşdirir. Fəqət arzu etdiyimiz ömür Oruc Həsənliyə qismət olmadı. Bizi gözü yaşlı qoydu. İnsanlar var ki, kiçicik bir uğur başlarını gicəlləndirir. Oruc Həsənli yaşadığı illərdə çox uğurlara imza atdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, AMEA-nın müxbir üzvü, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor, Naxçıvan Müəllimlər İnstitutunun rektoru oldu, neçə-neçə monoqrafiyaları, kitabları, dərsli-

yi nəşr edildi. Lakin insanlara, dost-tanışa, iş yoldaşlarına, rəhbərlik etdiyi pedaqoji kollektiv üzvlərinə, tələbələrinə olan saf, səmimi münasibəti qətiyyən dəyişmədi. Zarafatcıl idi. Zarafatından qalmadı. Həqiqi insan, istedadlı alim belə olar! Oruc Həsənli kimi.

Unudulmaz dost!!! Sənin yoxluğuna inanmırıq, inanmaq istəmirik! Sən həmişə qəlbimizdə, yaddaşlarımızda olacaqsan!!!

**Akif Abbasov,**
*Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor,*